22 FEVRAL AVTOMOBİL YOL İŞÇİLƏRİNİN PEŞƏ BAYRAMI GÜNÜDÜR



Yol - mədəniyyət, iqtisadiyyat, bir sözlə, həyat deməkdir.

**Heydər ƏLİYEV**

# "Azəryolservis" ASC rahat yolların təminatçısıdır

Azərbaycan Prezidenti İlham Əliyevin 2008-ci il fevralın 20-də imzaladığı "Azərbaycan Respublikası avtomobil yol işçilərinin peşə bayramının təsis edilməsi haqqında" sərəncamı ilə artıq 9-cu ildir ki, 22 fevral kollektivimiz tərəfindən xüsusi gün kimi qeyd edilir. Avtomobil yol işçilərimiz ölkəmizin sosial-iqtisadi inkişafına töhfə verməklə Azərbaycanda yol infrastrukturunun formalaşmasında mühüm rol oynayırlar. İndi ölkəmizdə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının prioritet istiqamətlərindən biri məhz yol infrastrukturunun təzələnməsi, yenidən qurulmasıdır.

Ötən il dekabrın 28-də dövlət başçısı İlham Əliyev "Azərbaycan Respublikasının nəqliyyat-yol kompleksində idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında" 22 fevral 2007-ci il tarixli 1992 nömrəli sərəncamında dəyişikliklər edilməsi barədə yeni sərəncam imzaladı. Həmin sərəncama əsasən, Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi ölkənin avtomobil yolları şəbəkəsinin və yol infrastrukturunun bərpasına və yenidən qurulmasına güclü təkan verdi. Qəbul olunmuş dövlət proqramları çərçivəsində Bakıda, habelə ölkənin digər şəhər və rayonlarında yeni avtomobil yollarının salınması, nəqliyyat qovşaqlarının və körpülərin tikintisi nəzərdə tutulur.

Göstərilən prioritet məsələlərin həlli istiqamətində görülən işlərin səmərəliliyinin artırılması, habelə ölkənin yol kompleksində idarəetmənin təkmilləşdirilməsi məqsədilə "Azəryolservis" ASC Nəqliyyat Nazirliyinin tabeliyindən çıxarıldı. Bununla da "Azəryolservis" ASC ölkənin ümumi istifadədə olan respublika və yerli əhəmiyyətli avtomobil yollarının, körpülərin, tunellərin və yol qurğularının, həmçinin Bakı şəhərindəki avtomobil yollarının, prospektlərin və küçələrin vəziyyətinə nəzarətin həyata keçirilməsi, qorunub-saxlanılması, layihələndirilməsi, tikilməsi, cari, orta və əsaslı təmir edilməsi işlərinin aparılmasını daha da yüksək səviyyədə təmin etməyə başladı.



Hazırda cəmiyyətimizin balansında ümumi istifadədə olan 17529 kilometr uzunluqda avtomobil yolu var. Bu yolun 4385 kilometri respublika əhəmiyyətli, 13158 kilometri isə yerli əhəmiyyətli avtomobil yollarından ibarətdir. Yolun 2670 kilometri hazırda Ermənistan tərəfindən işğal olunmuş ərazilərdədir. Cəmiyyətimizin balansında 1299 körpü vardır ki, bunun da 160-ı işğal olunmuş ərazilərdə yerləşir.

Yol infrastrukturu da daxil olmaqla ölkə həyatının bütün sahələrini əhatə edən yeniləşmə və müasirləşmə prosesi getdikcə dərinləşir, dövlətin gücünün və qüdrətinin artırılmasına, xalqın rifahının durmadan yüksəldilməsinə xidmət edən böyük quruculuq proqramları uğurla yerinə yetirilir.

Ölkəmizin yol infrastrukturu sahəsində əldə etdiyi uğurların təməlində, heç şübhəsiz, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş xarici və daxili siyasət dayanır. "Yol - mədəniyyət, iqtisadiyyat, bir sözlə, həyat deməkdir" - əsl fəaliyyət proqramına çevrilmiş ulu öndərin bu sözləri yol təsərrüfatının inkişafına nə qədər böyük önəm verdiyini bir daha sübut edirdi.

Ümummilli lider Heydər Əliyevin inkişaf strategiyasını uğurla davam etdirən Prezident İlham Əliyev hazırda ölkə həyatının bütün sahələri ilə yanaşı, avtomobil yolları təsərrüfatı infrastrukturunun sistemli və hərtərəfli inkişafına xüsusi diqqət göstərir. Ölkəmizin bütün regionlarında, eləcə də paytaxt Bakıda kompleks tədbirlər həyata keçirilir, dövlət başçısı tərəfindən mütəmadi olaraq imzalanmış sərəncamlar həmin sahənin daha da yeniləşdirilməsi üçün əsaslı zəmin yaradır.

Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq fərmanları ilə ölkəmizdə 2004-cü ildən uğurla reallaşdırılan regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları çərçivəsində yol infrastrukturunun yenilənməsi müasir Azərbaycanın real mənzərəsini xarakterizə edən əsas cəhətlərdəndir.

Hazırda dövlət başçısının diqqət və qayğısı sayəsində həmin çərçivədə "Azəryolservis" ASC tərəfindən kompleks tədbirlər uğurla davam etdirilir. Təsadüfi deyil ki, ölkə rəhbəri yol infrastrukturunun yenilənməsi ilə bağlı görülən işlərə xüsusi əhəmiyyət verərək bu sahədə həyata keçirilən tədbirlərin mövcud vəziyyəti ilə şəxsən maraqlanır, açılış və təməlqoyma mərasimlərində iştirak edir. Bütün bunlar, əlbəttə, kollektivimizin əzmkarlığını daha da artırır.



2015-ci ildə uzunluğu 20 kilometrə yaxın Göyçay-Ucar avtomobil yolunun yenidənqurulması, Ağsu-Kürdəmir-İmişli avtomobil yolu layihəsinin uzunluğu 37 kilometrlik Ağsu-Kürdəmir hissəsi, Şəki-Qax-Zaqatala avtomobil yolunun, uzunluğu 35 kilometr olan Şəki-Qax yolunun yenidənqurulması layihələri də uğurla başa çatmışdır. Biz qürur duyuruq ki, həmin yolların açılış mərasimləri məhz Prezident İlham Əliyevin iştirakı ilə həyata keçirilmişdir.

Təkcə ötən il ərzində dövlət proqramları çərçivəsində "Azəryolservis" ASC respublikanın bütün bölgələrində yol infrastrukturunun yenilənməsi istiqamətində irimiqyaslı layihələr həyata keçirmişdir. Dünya standartlarına cavab verən yeni yollar çəkilmiş, yol ötürücüləri, körpülər, yeraltı və yerüstü piyada keçidləri tikilmişdir. Belə ki, 524,4 kilometr uzunluğunda ümumi istifadədə olan yeni avtomobil yolları tikilmiş və yenidən qurularaq təmir olunmuş, 12 yeni avtomobil körpüsü, 3 yol ötürücüsü, 2 tunel və 9 piyada keçidi tikilərək istismara verilmişdir. 2015-ci il ərzində Bakı şəhərində uzunluğu 112,1 kilometr təşkil edən 42 adda küçə və prospektdə təqribən 440 min kvadratmetr sahədə əsaslı təmir və yenidənqurma işləri başa çatdırılmışdır.

2015-ci ilin iyun ayında I Avropa Oyunlarnın Bakıda keçirilməsi Azərbaycanın tarixinə qızıl hərflərlə yazılacaq qədər mühüm əhəmiyyətli hadisə idi. "Azəryolservis" ASC-nin I Avropa Oyunlarına hazırlıqla bağlı daxili investisiya hesabına Bakı-Ələt avtomobil yolunun 4-6 kilometr hissəsinin tikintisi işləri çərçivəsində Bakı Su İdmanı Sarayı ərazisində ümumi uzunluğu 6,6 kilometr 4-5 hərəkət zolaqlı bağlantı yolları və Bayıl bulvarına çıxışa imkan verən 226 metr uzunluğunda piyada keçidinin, Olimpiya Stadionu ətrafında ümumi uzunluğu 14,8 kilometr, 4-6 zolaqlı yeni yolların və Həsən Əliyev küçəsindən Ziya Bünyadov prospektinə paralel olaraq metronun "Koroğlu" stansiyasına qədər yeni avtomobil yolunun, uzunluğu 1,4 kilometr, eni 21,5 metr olan Stend Atıcılığı İdman Kompleksinə gedən yolun və Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun "Avtovağzal dairəsi" adlanan ərazisinin Bakı Dairəvi-1 avtomobil yoluna birləşdirilməsi məqsədilə inşa edilən yeni yol-körpü kompleksinin tikintisi işləri də yüksək keyfiyyətlə aparılaraq başa çatdırılıb. Həmin vaxt "Azəryolservis" ASC-nin tabeliyində olan idarə və müəssisələr tərəfindən ümumi uzunluğu 53,4 kilometr təşkil edən 16 prospekt, küçə və avtomobil yolunda 439,5 min kvadratmetr sahəyə asfalt örtük döşənib.

Qeyd etməliyəm ki, hazırda regionlar üzrə daxili investisiya hesabına ümumi uzunluğu 381 kilometr təşkil edən avtomobil yolunun və 14 körpünün tikinti işləri davam etdirilir.

Avtomobil yolları respublikamızın iqtisadi qüdrətinin göstəricisidir. Ölkəmizdə istehsal və sənayenin bütün sahələrinin inkişafı birbaşa yol örtüyünün hansı vəziyyətdə olmasından asılıdır. Respublikamızda yol infrastrukturunun yenilənməsini zəruri edən mühüm amil Azərbaycanın avtomobil yükdaşımaları üçün əlverişli coğrafi mövqedə yerləşməsidir. Məhz buna görə də avtomobil yollarının yenidənqurulması birbaşa olaraq yükdaşımalara da müsbət təsir edir. Yükdaşımaların çoxalması həmin sahədən gələn gəlirlərin, dövlət büdcəsinə daxil olan vəsaitin həcminin artmasına və nəticədə iqtisadiyyatımızın inkişafına səbəb olur.

Prezident İlham Əliyevin tövsiyə və tapşırıqlarına əsasən istər respublikamızın şərq-qərb, istərsə də şimal-cənub istiqamətində nəqliyyat vasitələri ilə beynəlxalq yükdaşımaları dəhlizi üzərində yerləşən avtomobil yollarının müasir səviyyədə yenidənqurulması və bu istiqamətdə aparılan uğurlu islahatlar nəticəsində son illər birinci texniki dərəcəli yolların uzunluğu 426 kilometr artaraq 541 kilometrə çatmışdır.

Dövlət başçısı beynəlxalq miqyaslı Böyük İpək yolunun tərkib hissəsi olan Bakı-Ələt-Qazax-Gürcüstan Respublikası dövlət sərhədi avtomobil yoluna daha 2 hərəkət zolağı əlavə edilməklə birinci texniki dərəcəyə təkmilləşdirilməsi layihəsini daim diqqət mərkəzində saxlayır. Çünki həmin avtomobil yolu şərq-qərb istiqamətində beynəlxalq avtomobil yükdaşımaları dəhlizinin Azərbaycandan keçən tərkib hissəsi olmaqla, Avropa-Asiya və Yaxın Şərq ölkələri ilə, həmçinin respublika ərazisində bu istiqamətdə əlaqələrinin inkişafında mühüm rol oynayır.

Bakıdan Gürcüstan sərhədinədək 503 kilometr məsafəni əhatə edən magistralın Bakı-Ələt, Ələt-Hacıqabul, Yevlax-Gəncə hissələrinin birinci texniki dərəcəyə təkmilləşdirilməsi işləri artıq yekunlaşdırılmışdır. Magistralın Hacıqabul-Kürdəmir, Kürdəmir-Ucar-Yevlax hissələrində bizim müdaxiləmiz ilə gecikmələrə səbəb olan problemlərin həllinə də nail olunmuşdu. Belə ki, mütəmadi olaraq işlərin gedişi ilə yerindəcə tanış olduq, müvafiq tapşırıq və tövsiyələrimizlə çatışmazlıqları aradan qaldırdıq.



Nəticədə qısa zaman ərzində magistral avtomobil yolunda tikinti-quraşdırma işləri nəqliyyat vasitələrinin fasiləsiz hərəkəti dayandırılmadan yerinə yetirildi. Bütün işlər beynəlxalq tikinti və normalarının tələblərinə uyğun keyfiyyətlə aparılaraq yol istismara hazır vəziyyətə gətirildi. 30 dekabr 2015-ci ildə Bakı-Ələt-Qazax-Gürcüstan Respublikası dövlət sərhədi avtomobil yolunun Hacıqabul-Kürdəmir hissəsinin yenidənqurmadan sonra açılış mərasimini keçirdik.

Həmin magistralın Kürdəmir-Ucar-Yevlax hissəsinin I texniki dərəcəyə uyğun təkmilləşdirilməsi layihəsində isə son tamamlanma işləri aparılır. Daha sonra isə Gəncə-Qazax-Gürcüstan Respublikası dövlət sərhədi hissəsinin də yenidənqurulmasına başlanılması planlaşdırılır. Layihənin tam reallaşdırılmasından sonra Şərqdən Qərbə və əks istiqamətdə Böyük İpək yolunun Azərbaycandan keçən hissəsi olmaqla, Bakı-Ələt-Qazax-Gürcüstan Respublikası dövlət sərhədi avtomobil yolu Avropa ilə Asiya arasında beynəlxalq və daxili yükdaşımalarının inkişafında daha da mühüm yer tutacaq.

Şimal-Cənub istiqamətində avtonəqliyyat vasitələri ilə beynəlxalq yükdaşımalarında Bakı-Quba-Rusiya Federasiyası və Bakı-Ələt-Astara-İran İslam Respublikası dövlət sərhədi avtomobil yolları da mühüm əhəmiyyətə malikdir. Bu avtomobil yolları ilə Avropa ölkələrinin, Rusiyanın, Orta Asiya və Qafqaz regionlarının Fars körfəzi və Hindistana çıxışına, Xəzəryanı ölkələrin Qara dəniz limanları ilə ticarət əlaqələrinin intensivləşdirilməsinə şərait yaranması, əlbəttə, ürək açır.

İndiyədək ölkənin yol təsərrüfatı sistemində mühüm yer tutan və Şimal-Cənub istiqamətində nəqliyyat vasitələri ilə beynəlxalq yükdaşımalarında mühüm əhəmiyyətə malik olan Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun yenidən qurulması istiqamətində də böyük iş həcmi yerinə yetirilmişdir. Hazırda magistralın Gəndob-Rusiya Federasiyası ilə dövlət sərhədi hissəsinin tikintisi davam etdirilir.

Şimaldan Cənuba doğru və əksinə, avtomobil yükdaşımaları dəhlizinin əsas elementlərindən biri olan Ələt-Astara-İran İslam Respublikası dövlət sərhədi avtomobil yolunun tikintisi də hazırda bizim nəzarətimiz altında texnoloji ardıcıllığa riayət olunmaqla yüksək keyfiyyətlə davam etdirilir. Layihənin icrası həmin dəhliz vasitəsi ilə məsafənin dəfələrlə qısaldılması ilə bərabər, daşımaların daha rahat şəkildə həyata keçirilməsi ilə artımına gətirib çıxaracaq.

Bir sözlə, Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən "Azəryolservis" ASC respublika əhəmiyyətli yolların yenidənqurulması ilə avtomobillə beynəlxalq yükdaşımaların artımı ölkədə qeyri-neft sektorunun şaxələnməsinə səbəb olur və yol təsərrüfatı sahəsinin, xarici yükdaşımanın ölkə iqtisadiyyatının inkişafına təkan verir.

Kənd yollarının yenidənqurulması da ölkə rəhbərliyinin diqqətdə saxladığı əsas məsələlərdən biridir. Təsadüfi deyil ki, son iki il ərzində Prezident İlham Əliyev tərəfindən kəndlərarası avtomobil yollarının tikintisi üçün 50-yə yaxın sərəncam imzalanmışdır.

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının ikinci ilinin yekunlarına həsr olunmuş konfransda Prezident İlham Əliyev bu il kənd yollarının tikintisinin sürətləndirilməsinin vacibliyini ön plana çəkmişdir.

"Azəryolservis" ASC "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı" və "2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqram"larında avtomobil yollarının tikintisini vaxtında icra etmək, eləcə də işsizliyin aradan qaldırılması istiqamətində ölkə rəhbərliyinin həyata keçirdiyi layihələrə dəstək olmaq məqsədi ilə 2 mindən artıq vətəndaşı müvafiq işlə təmin etmişdir.

Onu da əlavə etmək yerinə düşər ki, ölkə başçısının yerli istehsalın daha da gücləndirilməsi istiqamətində verdiyi tapşırıq və tövsiyələrinə əsasən "Azəryolservis" Açıq Səhmdar Cəmiyyəti yolların tikintisi, yenidənqurulması və təmiri zamanı ancaq yerli tikinti materiallarından istifadə edir.

Keçən il ərzində "Azəryolservis" ASC avtonəqliyyatın hərəkətinin təhlükəsizliyi ilə bağlı bir sıra tədbirlər həyata keçirmişdir. Belə ki, Heydər Əliyev prospekti ilə Babək prospektinin kəsişməsində "Ramstore" yol qovşağında, İnşaatçılar prospekti ilə Nəriman Nərimanov və Naxçıvani küçələrinin kəsişməsində "Statistika" dairəsində, Həsən bəy Zərdabi küçəsi ilə Əbdülvahab Salamzadə küçələrinin kəsişməsində "Qələbə" kinoteatrı qarşısındakı dairədə, 20 Yanvar və Sulutəpə dairələrində, həmçinin Babək prospektinin Nəcəfqulu Rəfiyev küçəsi ilə kəsişməsində yerləşən yol qovşağının alt hissəsində aparılan yenidənqurma işləri artıq öz müsbət nəticələrini vermişdir. Həmin ərazilərdə avtonəqliyyat sıxlığının azalmasına imkan yaradılması, əlbəttə, hamını razı salır.



Ötən il ərzində 1739 ədəd yol nişanları, 11903 ədəd siqnal dirəkləri, 58 ədəd məlumatverici lövhə, 33844 p/m isə əyrixətli tirlər quraşdırılmış və bərpa edilmişdir.

Avtomobil yol işçiləri Azərbaycan Respublikasında ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa və meşələrin bərpa edilməsi və artırılmasına dair Milli proqramların, ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair Kompleks Tədbirlər Planının icrasının təmin edilməsi ilə əlaqədar avtomobil yollarının mühafizə zolağında keçən il ərzində 254,894 ədəd müxtəlif növ ağac və kol bitkisi əkmişlər. Hazırda avtomobil yollarının mühafizə zolağında 1092300 ədəd ağac və kol bitkisi mövcuddur.

Faktlardan göründüyü kimi, ölkədə yol təsərrüfatı infrastrukturunun inkişaf etdirilməsi daim diqqət mərkəzindədir və atılan addımlar bu sahəyə investisiyaların qoyuluşuna, beynəlxalq yükdaşımalarının və ticarət potensialının artmasına, yeni iş yerlərinin açılmasına, eləcə də turizmin inkişafına da şərait yaradır.

İftixar hissi ilə qeyd etməliyik ki, bu gün ölkəmizdə yol infrastrukturunun tamamilə yeniləşdirilməsi və müasirləşdirilməsi, bu sahədə əsaslı dəyişikliklərin yer aldığı proses uğurla davam etməkdədir. Bütün bunlar öz növbəsində regionların inkişafına müsbət təsirini göstərir, bölgələrin simasını əsaslı şəkildə dəyişdirir, həmçinin avtonəqliyyatın və əhalinin rahat, təhlükəsiz və maneəsiz hərəkətini təmin edir.

Bir sözlə, "Azəryolservis" Açıq Səhmdar Cəmiyyəti başdan-başa ölkənin yol infrastrukturunun yenilənməsi ilə bağlı Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən avtomobil yolları şəbəkəsinin daha da inkişafına nail olacaq, yol infrastrukturunun tam təzələnməsi istiqamətində mühüm addımlar atacaq.

***Avtomobil yol işçilərinin peşə bayramı günü ərəfəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azəryolservis" ASC-nin işçilərinə "Əməkdar mühəndis" fəxri adı verməsi və "Tərəqqi" medalı ilə təltif etməsi kollektivimizin sevincinə səbəb olmuşdur. Bu diqqət və qayğıdan qürur duyur, möhtərəm Prezidentə dərin minnətdarlığımızı bildiririk. Bundan sonra daha məsuliyyətlə çalışıb, qarşıya qoyulmuş vəzifələrin öhdəsindən layiqincə gəlib etimadı doğruldacağıq.***

*Saleh MƏMMƏDOV,*
*"Azəryolservis" ASC-nin sədri*